# "Sabahın alimləri" V Respublika Müsabiqəsinin qalibi



Bu günlər Bakının Nərimanov rayonundakı Məktəb-Lisey Kompleksinin şagirdi Züleyxa Qasımovanın sevincinin hədd-hüdudu yoxdur. O, Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, Heydər Əliyev Mərkəzinin, Azərbaycan Milli Elmlər Akademiyasının, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə keçirilən "Sabahın alimləri" V Respublika Müsabiqəsinin qalibi olub. Gənc istedad "Azərbaycanın üzvi maddələr və ağır metallarla çirklənmiş su hövzələrinin təmizlənməsi üçün biobonların hazırlanması" adlı layihə ilə müsabiqədə iştirak edib. Onun layihəsi Kür və Araz çaylarının ağır metallardan və üzvi maddələrdən təmizlənməsi probleminə həsr olunub. Züleyxanın layihəsinin təqdimatında məruzəsi müsabiqənin münsiflər heyəti tərəfindən bəyənilərək diplom və medala layiq görülüb.

Sevincini müəllimləri ilə bölüşən Züleyxa Qasımova uğur qazanmasında əməyi olan hər kəsə, xüsusilə əməkdar müəllim və "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olan Xoşqədəm Orucovaya öz minnətdarlığını ünvanlayıb. Bildirib ki, daha əzmlə çalışaraq, öz istedad və bacarığını nümayiş etdirərək yeni nailiyyətlərə imza atacaq.

Bu barədə redaksiyamıza məlumat verən Məktəb-Lisey Kompleksinin tarix müəllimi, əməkdar müəllim, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi İlqar Abdullayevin bildirdiyinə görə, ölkə başçısı İlham Əliyevin "Biz neft kapitalını insan kapitalına çevirməliyik" tezisini prioritet istiqamət kimi müəyyənləşdirdiyi bir zamanda Züleyxa Qasımovanın bu qələbəsi kompleksdə böyük əks-səda doğurub. Artıq bir çox digər şagird və müəllimlər də "Sabahın alimləri" müsabiqəsi ilə daha fəal şəkildə maraqlanır və gələcəkdə onun toplantılarında iştirak etmək arzusunda olduqlarını bildirirlər.